# Böyük kəşflərin müəllifi

**Ədəbiyyatçı olmaq istəyi onu uşaq yaşlarından poeziyaya istiqamətləndirmişdi. Hələ orta məktəbdə oxuyarkən şeirlər yazmış, filoloq olmaq arzu ilə yaşamışdır. Təbiətə, onun gözəlliklərinə və cazibəsinə olan sevgisi gənc Yusifi tamamilə başqa sahəyə yönəltmiş, kimya elmini seçmişdir.**

Ömrünü kimya elminin inkişafı və təşəkkülünə həsr edən alimin yaxın dostlarının bir qismi məhz ədəbiyyatçı olmuşdur. Həmin insanlar repressiyaya məruz qaldıqları zaman belə onlarla əlaqəni kəsməmişdir. Onun kimya elmindəki ixtiraları təkcə Azərbaycan deyil, keçmiş SSRİ-də də əvəzsiz rola malik olmuşdur. Alim yerin ilk süni peykinin buraxılmasında və insanın kosmosa ilk uçuşunda da xidmət göstərmişdir. Raketlər üçün yaratdığı "duru" və "bərk" yanacaqlar dünya elminə, aviakosmik tədqiqatlar sahəsinə, hərbi müdafiə sənayesinə əvəzolunmaz töhfə olmuşdur. İkinci Dünya müharibəsində qələbənin həlledici məqamlarından biri də məhz həmin ixtisası ilə bağlıdır. Hətta bu barədə söz düşəndə "Müharibəni Mikulinin motorları, Yakovlevin təyyarələri, Məmmədəliyevin benzini hesabına udmaq mümkün oldu!" deyirdilər. Bəli, bu böyük alim, ictimai xadim, istedadlı şəxsiyyət və Azərbaycan kimya elminin sütunlarından olan Yusif Məmmədəliyevdir.

Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci il dekabrın 31-də Naxçıvan qəzasının Ordubad şəhərində anadan olub. Atası Hacı Heydər din xadimi olmaqla yanaşı, dövrünün elmə önəm verən maarifpərvər adamlarından biri kimi övladlarının mükəmməl təhsil almaları üçün hər şərait yaratmışdır. 1918-ci ildə daşnak Andranikin Ordubada hücumundan sonra Arazın o tayına keçmiş, bir il altı ay Təbrizdə yaşadıqdan sonra 1920-ci ildə vəziyyət sakitləşdikdə Ordubada qayıtmışdır. 1923-cü ilə kimi Yusif Məmmədəliyev məktəbdə müəllim işləmişdir. Təhsilini artırmaq məqsədilə Bakıya gəlmiş, yeni açılan Pedaqoji İnstituta daxil olmuşdur. Ədəbiyyat fakültəsinə qəbul olmaq istəyən Yusif Məmmədəliyevə müəllimi kimya elmi üzrə təhsil almağı məsləhət görmüşdür. 1926-cı ildə Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra, 1928-1929-cu illərdə İrəvan Azərbaycan Pedaqoji Texnikumunda müəllim işləmiş, burada İrəvan azərbaycanlılarının ictimai həyatında fəallıq göstərmişdir. Həmin dövrdə Ermənistanda azlıqda qalan millətlərlə iş komissiyasının üzvü olmuş, kütlənin hüquqi vəziyyəti, gənclərin, xüsusən də qızların təhsilə cəlb edilməsi istiqamətində mətbuatda ardıcıl çıxışlar etmişdir.



1929-cu ildə kimya sahəsində təhsilini davam etdirmək üçün Moskva Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdur. 1933-cü ildə Bakıya gələrək Kuybışev adına Elmi-Tədqiqat İnstitutunda kiçik elmi işçi vəzifəsində işləməyə başlayan Yusif Məmmədəliyev 1942-ci ildə kimya elmləri doktoru professor adına layiq görülüb. 1945-ci ildə Azərbaycan SSR EA-nın akademiki olan alimin adı ölkəmizdə kimya elminin inkişafının bütöv bir dövrü ilə bağlıdır. Onun əsas elmi işləri, neft və neft qazlarının katalitik emalı sahəsinə aid olmuşdur. Yusif Məmmədəliyev Azərbaycan neft kimyasının əsasını qoymuşdur. O, müxtəlif karbohidrogenlərin katalizator iştirakı ilə xlorlaşdırma və bromlaşdırılmasının yeni üsullarını təklif etmiş, neft qazlarını, xüsusilə də metanı əvvəllər stasionar katalizator üzərində, sonralar isə qaynar təbəqədə xlorlaşdırmaqla, karbontetra-xlorid, metilxlorid, metilen-xlorid kimi qiymətli məhsulların alınması yollarını göstərmişdir. 1941-1945-ci il müharibəsində müstəsna xidmətləri olmuş, ən ağır dövrlərdə yüksək oktanlı benzinin ixtirasına nail olmuşdur. Akademik Yusif Məmmədəliyev benzolu propilenlə aktivləşdirmək yolu ilə izopropibenzolun sintezi üsulunu işləyib hazırlamışdır ki, bu da İkinci Dünya müharibəsi illərində aviasiyanın yüksək oktanlı yanacaqla təmininə kömək etmişdir.

Sovet İttifaqının faşizm üzərində qələbəsində tank əleyhinə qarışığın kəşfinin çox böyük əhəmiyyəti olmuşdur. Həmin kəşf Yusif Məmmədəliyev tərəfindən toluolun - partlayıcı maddələr üçün xammalın əldə edilməsi əsasında işlənib hazırlanmışdır. Lakin çox az adam bilirdi ki, düşmən üçün həmin məhvedici "kokteylin" müəllifi böyük Azərbaycan alimi Yusif Məmmədəliyevdir.

Yusif Məmmədəliyev Bakı neftinin benzin fraksiyasının katalitik aromatikləşdirilməsi, yuyucu maddələr və silisium-üzvü birləşmələr alınması, piroliz məhsullarından plastik kütlə istehsalı və Naftalan neftinin təsir mexanizminin öyrənilməsi sahələrində də mühüm işlər görmüşdür.

O, 1945-ci ildə Azərbaycan SSR EA-nın akademiki, Rəyasət Heyətinin üzvü və EA Neft İnstitutunun direktoru seçilmişdir. 1954-cü ildə Azərbaycan SSR EA Fizika, Kimya və Neft bölməsinin



akademik katibi, 1954-1958-ci illərdə ADU-nun rektoru, eyni zamanda alimin yüksəkixtisaslı elmi kadrlar hazırlanmasında böyük xidmətləri olmuşdur. Yusif Məmmədəliyev 200-dən artıq elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir. Onun yaratdığı Azərbaycan neft-kimya məktəbi respublikamızdan çox-çox uzaqlarda tanınır.

Azərbaycanda Astrofizika Rəsədxanasının təşkilində Yusif Məmmədəliyev müstəsna rol oynamışdır. Onun şəxsi nüfuzu və zəhməti bahasına Avropada ən böyük teleskop bu rəsədxanaya Almaniyadan gətirilmişdir. Nəinki kimya sahəsinin, hətta humanitar elmlərin, elm tarixinin mahir bilicisi olan akademik Y.Məmmədəliyev yüksək vətənpərvərlik hissi ilə Azərbaycanda hələ o dövrdə Əlyazmalar Fondunun yaradılmasına, Qobustan abidələrinin qorunub saxlanılmasına, qədim Azərbaycan eposu olan "Kitabi-Dədə Qorqud" dastanının, Qafqaz Albaniyasının tarixinin tədqiqinə, "Nizamişünaslıq" elminin əsasının qoyulmasına, Böyük Şərq şair və mütəfəkkiri Nizami Gəncəvinin Bakıda abidəsinin ucaldılmasına nail olmuşdur. Bununla yanaşı, alim o dövrdə Azərbaycan dilinin dövlət dili kimi qəbul olunması və geniş istifadə edilməsi üçün heç nədən çəkinməyərək bütün qüvvəsi ilə çalışmış və bu istiqamətdə müstəsna xidmətlər göstərmişdir. Sumqayıt Kimya Elmi Mərkəzi və digər müəssisələrin təşkili Yusif Məmmədəliyevin adı ilə bağlıdır. Alim ölkəmizə və dünya elminə verdiyi töhfələrin nəticəsi olaraq "Lenin", "Qırmızı əmək bayrağı" və "Şərəf nişanı" ordenlərilə, həmçinin medallarla təltif edilmişdir.

Əvəzsiz xidmətlərinə görə Nobel mükafatına namizədlik məsələsi ortaya çıxanda SSRİ alimlərinin çoxu Bakıdan olan "alkilləşdirmə kralı"nın namizədliyi üzərində dayanmışdır. Yusif Məmmədəliyevə qırıcı təyyarələr üçün keyfiyyətli benzin kəşfinə görə Nobel mükafatı veriləcəkdi. 1957-ci il dekabrın 29-da sənədlərin Nobel Komitəsinə təqdim olunması ərəfəsində qəfildən Sovet Ordusu Arxa Təchizat İdarəsinin rəisi marşal Baqramyan, Tank Qoşunları komandanı general Babacanyan dövlət sirri və hərbi sirr olduğu üçün bu ixtiraya dair məlumatların Stokholma göndərilməsini məsləhət bilmirlər. Beləcə, burada da erməni fitvası öz işini görmüşdür. Əslində bu, ermənilərin böyük Azərbaycan aliminə olan qısqanclığı idi. Lakin böyük şəxsiyyət, ziyalı insan, dünyaşöhrətli Azərbaycan alimi Yusif Məmmədəliyev dünya elm tarixinə öz imzasını birincilər sırasında həkk etdirmişdir. Yusif Məmmədəliyev 1961-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**